AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ

# QƏRAR

№ 14/3

Bakı şəhəri 25 sentyabr 2020-ci il

AMEA Rəyasət Heyətinin nəzdində
Virtual Elektron Fəaliyyət Cəmiyyətinin
təsis edilməsi haqqında

Azərbaycanda cəmiyyətin modernləşməsi istiqamətində uğurla həyata keçirilən dövlət siyasətinin mühüm istiqamətlərindən biri "Virtual Azərbaycan"ın formalaşdırılmasıdır. İnternet mühitində milli kontentin inkişaf etdirilməsi, xalqın tarixi, ədəbi və mədəni irsinin qorunub saxlanılması və geniş təbliği, dünya informasiya məkanında milli maraqların qorunması kimi məsələlər mühüm vəzifələrdəndir. Qeyd olunan vəzifələrin yerinə yetirilməsi üçün virtual mühitdə Azərbaycanın yüksək səviyyədə təmsil olunması xüsusi əhəmiyyətə malikdir.

İnternet mühitində Azərbaycanın milli maraqlarının yüksək səviyyədə qorunmasında, Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində AMEA-nın üzərinə mühüm vəzifələr düşür. Bu vəzifələrin icrasını təmin etmək məqsədilə AMEA-da bir sıra mühüm tədbirlər həyata keçirilir, bu istiqamətdə elmi tədqiqat işləri aparılır, xarici təcrübə öyrənilir, milli maraqlara zidd olan kontentin aşkarlanması üçün müntəzəm monitorinqlər təşkil edilir, virtual mühitdə Azərbaycanın tarixi həqiqətləri, nailiyyətləri, görkəmli şəxsiyyətləri haqqında zəruri məlumatlar, eləcə də müxtəlif elm sahələrinə aid ensiklopedik elmi biliklər yerləşdirilir.

Bütün bunlarla yanaşı, bu istiqamətdəki fəaliyyətin daha effektiv qurulması, pərakəndəliyin aradan qaldırılması, həyata keçirilən işlərin vahid mərkəzdən koordinasiyası və onların daha sistemli təşkili məqsədilə bu sahədə müstəqil qurumun yaradılmasına ehtiyac vardır.

Qeyd olunanları nəzərə alaraq, Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. AMEA Rəyasət Heyətinin nəzdində ictimai əsaslarla Virtual Elektron Fəaliyyət Cəmiyyəti təsis edilsin.

2. AMEA prezidentinin köməkçisi fəlsəfə üzrə fəlsəfə doktoru Ələddin Mehman oğlu Məlikov AMEA Rəyasət Heyətinin nəzdində Virtual Elektron Fəaliyyət Cəmiyyətinin ictimai əsaslarla sədri təyin edilsin.
3. AMEA Rəyasət Heyətinin nəzdində Virtual Elektron Fəaliyyət Cəmiyyətinin sədri Ələddin Məlikova tapşırılsın ki, AMEA-nın əməkdaşlarının, o cümlədən elmi işçilərin, doktorant və magistrantların, həmçinin digər könüllü mütəxəssislərin səylərini birləşdirməklə Virtual Elektron Fəaliyyət Cəmiyyətinin işini təşkil etsin.
4. Qərarın icrasına nəzarət AMEA prezidentinin Katibliyinə həvalə edilsin.

AMEA-nın prezidenti — akademik Ramiz Mehdiyev

AMEA-nın akademik-katibi — AMEA-nın müxbir üzvü Əminağa Sadıqov

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
RƏYASƏT HEYƏTİ
SƏNƏDLƏRLƏ İŞ ŞÖBƏSİ
APARAT